## Sövdəyar Zəngilanlı

# Olaydım

Ayrı düşməyəydim səndən bircə an,
Sinəndə çırpınan ürək olaydın
Beş gün yox, on gün yox həyatım boyu
Kaş sənə əzizim, gərək olaydım.

Təbəsüm quşu, üzümə qonub,
Xoş gülüş olaydım gözünə qonub.
Min nəğmə olaydım sözünə qonub
Ömürünə-gününə bəzək olaydım.

Canda can qalmayıb, ay nazlı afət,
Ağlımı başımdan alıb məhəbbət.
Kölnünə təsəlli qoluna quvvət,
Əyilməz dizinə dirək olaydım.

Kaşki ayrılığı görməyəydim mən,
Həmişə qarşıma sən cıxaydın sən.
Bir anda bu kənddən o kəndə əsən
Dəlisov xasiyyətli külək olaydım.

Könlümdə iz salıb, dərindən dərin,
Hər bir xasiyyəti ötən günlərin.
Bicarə Sövdəyarım könlümdə şirin,
Xoş arzu olaydım dilək olaydım.